# Gəncənin atəşə tutulması
# BƏŞƏRİ CİNAYƏTDİR

**Məlum olduğu kimi, Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri ağır raket atəşinə məruz qalıb. Bu atəş nəticəsində soydaşlarımız həlak olub və yaralanıblar. Hər bir Azərbaycan vətəndaşı və ziyalısı kimi, mən bu qəddarlığı qətiyyətlə pisləyirəm. Əminəm ki, dünyanın böyük humanist şairi olan Nizami Gəncəvi yurdunun qisasını erməni faşistlərindən Milli Ordumuz qətiyyətlə alacaq.**



Bu hadisə ilə bağlı möhtərəm Prezidentimiz İlham Əliyev xalqa müraciət etdi. Dövlətimizin başçısı Allahdan bütün şəhidlərimizə rəhmət, yaralı soydaşlarımıza şəfalar diləyərək dedi: “Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır və bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz, sındıra bilməz”.

Prezident İlham Əliyev sonra haqlı olaraq qeyd etdi ki, Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də operativ raket kompleksləri vasitəsilə atəş açmaq müharibə cinayətidir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhid olan günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq.

Azərbaycan Prezidenti, həmçinin vurğuladı ki, Azərbaycan əsgəri heç vaxt mülki əhaliyə qarşı müharibə aparmayıb, bundan sonra da aparmayacaq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bu amal ətrafında bütün Azərbaycan xalqı birləşib və bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir.

Həmin gün cəbhədən xoş xəbər də gəldi. Möhtərəm Prezidentimiz xalqımızı növbəti dəfə müjdələdi. Belə ki, Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğalçılardan azad edilib.

Bu, böyük tarixi qələbədir. Eşq olsun Azərbaycan Ordusuna! Zərrə qədər şübhə etmirəm ki, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün ərazisi ən yaxın günlərdə işğaldan tamamilə təmizlənəcək.

***Minaxanım ƏSƏDLİ,***
***Azərbaycan Turizm və Menecment Universitetinin professoru***

Xalq qəzeti 2020.- 20 oktyabr.- S.11.